BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2011*

# DİLÇİLİK

UOT indeks: 46.21.33 Mətnin linqvistikası, UOT 81'42; 801.7

## SİYASİ DİSKURS VƏ LEKSİK VAHİDLƏR

**F.A.ŞİRİYEV**
***Bakı Dövlət Universiteti***
***fikrethemkar@mail.ru***

*Məqalədə siyasi diskurs və onun mühüm parametrləri barədə dilçilikdə mövcud olan məsələlərdən bəhs olunur. Siyasi diskurs nəticə etibapilə siyasi mətndir və onun formalaşmasında "söz oyunu", yəni bəzi leksik vahidlərin kontekstual mənası xüsusi rol oynayır. Bu siyasi diskursun kommunikativ səciyyəsi, natiqin nitq intensiyası, habelə adresantla adresat arasındakı nitq aktı ilə bağlıdır.*

**Açar sözlər:** Siyasi diskurs, dil, nitq, konnotasiya, söz

Siyasi linqvistika politologiya və dilçilik kimi iki mühüm elmin qovuşuğunda formalaşan dilçilik sahəsidir. A.P.Çudinov qeyd edir ki, siyasi dilçilik müasir dilçiliyin antroposentrizm (dil hadisəsi öyrənilərkən danışanın şəxsiyyətinə istinad etmək), ekspansionizm (bir çox elmlərə ehtiva edən problemləri öyrənmək, genişlənmə), funksionalizm (dili funksiya baxımından öyrənmək), eksplanatorluq (dil faktını təkcə təsvir etmək yox, ona qiymət vermək) və s. mühüm xüsusiyyətlərini özündə təcəssüm etdirir [1, 4]. Keçən əsrin 90-cı illərində bu istiqamətdə xeyli maraqlı əsərlər meydana çıxmış, hətta dərsliklər də yazılmışdır. A.P.Çudinovun "Siyasi dilçilik" əsərində siyasi diskursu səciyyələndirmək üçün aşağıdakı antinomiyaları müəyyənləşdirmişdir:

1. Rituallıq və informativlik.
2. İzoteriklik və ümumi qəbul olunan.
3. İnstituallıq və şəxsi xarakter.
4. Siyasi mətndə informasiyanın reduksionizmi və çoxaspektliliyi.
5. Siyasi mətnin avtonomluğu və intermətnliliyi.
6. Siyasi mətnin müəllifliliyi və anonimliyi.
7. Siyasi kommunikasiyada tolerantlıq və aqressivlik [1, 42-50].

Siyasi diskurs siyasi dilçiliyin əsas anlayışıdır və o, diskursun müxtəlifliyini özündə əks etdirir; siyasi hakimiyyəti əlində saxlamaq və ya ona nail olmaq məqsədini daşıyır. Linqvistik ədəbiyyatlarda siyasi diskurs bütövü yaradan elementlər kompleksindən ibarət çoxplanlı, çoxaspektli hadisələr kimi

təqdim olunur. Siyasi diskurs siyasi diskussiyalarda istifadə olunan bütün nitq aktlarının məcmudur. Məsələyə belə baxış siyasi diskurs anlayışına geniş mənada baxmağı, yanaşmağı tələb edir. E.İ.Şeyqalın bu sahədəki tədqiqatları da son illər dilçilərin diqqətini cəlb etmişdir. O, "Siyasi diskursun semiotikası" adlı əsərində siyasi diskursun ölçülməsinin iki növünü göstərmişdir: 1) real ölçü; 2) virtual ölçü [2, 315].

Real ölçü deyəndə, müəyyən sosial məkandakı nitq fəaliyyəti nəzərdə tutulur. Buraya linqvistik, paralinqvistik və ekstralinqvistik faktorlar daxildir.

Diskursun virtual ölçüsü deyəndə verbal və qeyri-verbal işarələr nəzərdə tutulur ki, onlar da siyasət dünyası, söyləm tezariusu, müəyyən ünsiyyət mühiti üçün spesifik olan nitq janrlarının və fəaliyyətləri yığımından ibarət denotatlar məcmuudur. Y.A.Sorokin siyasi diskursu ideoloji diskursa nisbətdə müəyyənləşdirir. O, göstərir ki, siyasi diskursun iki növü vardır: 1) siyasi diskurs; 2) ideoloji diskurs. Bunlar arasında fərq ondan ibarətdir ki, siyasi diskurs eksplisit praqmatikdir, ideoloji diskurs isə implisit praqmatikdir. Birinci növ subdiskurs, ikincisi isə metadiskursdur [3, 57].

Beləliklə, linqvistik ədəbiyyatlarda siyasi diskurs dar və geniş mənada işlənir. Geniş məna deyəndə siyasi xadimin subyekt adresat, yaxud ünsiyyət məzmun daşıyan mühitə aid ünsiyyət forması nəzərdə tutulur. Dar mənada isə, siyasi hakimiyyəti ələ almaq və ya əldə saxlamaq üçün diskurs növləri nəzərdə tutulur. Əvvəldə qeyd etdiyimiz kimi, biz diskursu geniş anlamda nəzərdə tuturuq və buraya nitqin törəməsi və qavrayışını, habelə bunlara təsir edən ekstralinqvistik faktorları da aid edirik. Bundan əlavə, belə hesab edirik ik, "diskurs" müasir dilçilikdə müxtəlif nitqləri nəzərdə tutur. Siyasi diskursun təyinatı nəyi иsə təkcə təsvir etmək deyil, adresatı fəaliyyətə cəlb etmək üçün onda inam yaratmaq, onu inandırmaqdan ibarətdir. Siyasi diskursun effektliliyi də bu məqsəddən asılıdır.

Siyasi hakimiyyət dil vasitəsi ilə ünsiyyətə girir, onun vasitəsi ilə siyasi xadimlər adresatın şəxsi mühitinə daxil olur, bu vaxt "mən" əvəzinə "biz" leksimini seçir və bu üsulla "söz manipulyasiyası" başlayır; daha sonra mürəkkəb üsullara əl atılır. Manipulyasiya deyəndə kütlənin baxışlarını, fikirlərini fəaliyyət üsullarına bağlanma prosesini nəzərdə tuturuq. Belə ki, dil hakimiyyəti bütün cəmiyyətlərdə istifadə olunur. Məs.: Diktatura şəraitində cəmiyyət üzərində total nəzarət vasitəsi kimi dil daha mühüm əhəmiyyət kəsb edir. Çox inkişaf etmiş demokratik cəmiyyətlərdə dildən ağılla istifadə etmək hakimiyyət barədə cəmiyyətdə lazımi fikri formalaşdıra bilir.

Dilin siyasi diskursda funksiyasının tədqiqi zamanı bir-birini tamamlayan iki problemlə üzləşirik: hakimiyyətin dili, dil hakimiyyəti. Hakimiyyətin dili deyəndə necə danışmaq, indiki hakimiyyətin dilin hansı vasitə və üsullarından istifadə etməsi nəzərdə tutulur. Bu sırf linqvistikanın tədqiqat metodudur. Dil hakimiyyəti isə, həmin dil vasitə və üsulları ilə kütlə şüuruna dilin təsiri nəzərdə tutulur.

Siyasətçinin nitqi kütlə şüurunun lazımi tərəfinə təsir etməyi bacarmalıdır. Ona görə də, ağıllı siyasətçilər kütlə şüuru ilə həmahəng olan simvollarla, arxetiplərlə, rituallarla əməliyyat aparırlar. Siyasi nitqdə daha çox nəzərə çarpan metaforalardar. Məs.: seçicilər uğrunda döyüş, informasiya müharibəsi, demokratiyaya hücum, diplomatik döyüş, hakimiyyət krizisi, cəmiyyət sağalma yolundadır və s.

Bəzən siyasətçinin nitqi tam arqumentləşməyir. Bu da təsadüfi deyil. O, adresata izah edir ki, onun mövqeyi onların marağı dairəsindədir: bu marağı gözləyərək adresatın emosiyasına təsir etmək, onun hissləri ilə uzun müddət məşğul olmaq imkanı əldə edir. İnsanın koqnitiv mühitində təmasda olan anlayışlardan istifadə etmək daha çevik üsuldur. Bu gözlənilməz effektləri verir; gözlənilmədən bir inamdan digərinə keçid baş verir, bəzən də danışanın gözlədiyinin əksinə olur. Təsirin uğuru şəxsiyyətin keyfiyyətindən, nitqin kimə ünvanlanmasından asılıdır. Adresatın nitq şəraitini lazımi istiqamətə dəyişdirmək, o cümlədən onun kompozisiyasını monipulyasiya etmək olar.

Dil hakimiyyəti ziddiyyətlidir. Hamıya məlumdur ki, sözdən istifadə əsasında siyasətçilər arasında mübahisə, digər işlər uğrundakı mübahisədən də ciddi olur.

Dil vasitəsi ilə siyasətçilərin cəmiyyətə təsiri etiraf olunmuş faktdır. Bunu siyasətçilər özləri də etiraf edirlər. Bəziləri dilin hakimiyyətini anlamırlar, onu havada səs rəqsləri kimi başa düşürlər. Bununla bağlı bir məqamı nəzərdən keçirək. "Dil oyunu" fikrin generatoru kimi başa düşülür. Oyun mədəniyyətin yaranmasının əsasında durur, onu qabaqlayır və yaradır. Biz dünyada bu oyunun içindəyik. Əlbəttə, bizim psixikamız bizi lazımsız məntiqilikdən və stabillikdən müdafiə edir, monotonluqdan yoruluruq, ona görə də "dillə oyun" lazımdır. Oyunun mahiyyəti həzz və zövq almaqdır [4, 218]. Psixologiya belə hesab edir ki, "oyun" əməyin proobrazıdır, insanın ilk fəaliyyətidir, insanın özünü də o yaratmışdır. Y.M.Lotman "oyunda" həyatın əsas elementlərini görür. "Oyun" cinayətdir; sosial dünyanın modelidir; universiumdur [5, 391]. A.Blok deyirdi ki, həyat rok oyunudur, odla oyundur, rokdur. Siyasət də poeziya kimi, yaradıcılığa və oyuna aiddir, onda irreallıq əlamətləri vardır.

Söz timsalında dil elementləri oyununu nəzərdən keçirək. Siyasətçilər "söz oyunu"nda hansı sözlərə müraciət edirlər. Ən çox "ölkə və dövlət", "xalq və elektorat", "xalq iradəsi" və s. Əgər biz "xalq" sözünü işlədiriksə, ölkənin vətəndaşlarını, onun sakinlərini – əhalisini nəzərdə tuturuq. Siyasi liderlərdən bunu gözləmək olar; onların qərarları xalqın həyatına təsir edir, milyonlarla insanları, müxtəlif sosial qrupları əhatə edir. Məhz bu fakt çox vaxt siyasi diskursda arxa plana keçir. Onların fikrincə, xalq "super-eqo" kimi müxtəlif nöqteyi-nəzərlərə malikdir. Siyasətçiyə görə xalq kimi müdafiə edirsə, o "xalqın iradəsinin" ifadəçisidir; ona görə də hakim rejimin tənqidi xalq tərəfindən sevilmir. Hakimiyyətin azlıqda qalan əleyhdarları haqqında rəsmi olaraq fərqli nöqteyi-nəzərляр mövcuddur: onlar "özgələrdir"; hətta bəzi tarixi

mərhələlərdə “xalq düşmənləridirlər”, ölkənin tam hüquqlu vətəndaşları deyillər. Beləliklə, siyasətçilər öz şəxsi maraqlarından asılı olaraq sözlərin leksik mənasını dəyişirlər.

Beləliklə, dil oyunu bu sözlərin semantikasında müşahidə oluna bilər: xalq və əhali; xalq və elektorat. Hər iki cütlükdə “xalq” sözü mənasını dəyişir, əlavə məna qazanır. Birinci halda əhalinin düşüncəli hissəsi, nəzərdə tutulur. Təkcə səsvermə qabiliyyəti olanlar deyil, həm də düşünən, şüurlu şəkildə kimisə seçən ikinciyə aiddir.

Çox vaxt “ölkə” və “dövlət” sözləri sinonim kimi işlənir. Ancaq bu sözlər siyasətçilərin nitqində gah müsbət, gah da mənfi konnotasiyaya malik olur. Məs.:

“Biz güclü dövlət tərəfdarıyıq” (müsbət konnotasiyaya, həm də mənfi).

Bəzən predmetə münasibət dəyişir; onda sözün mənası da qiymətcə dəyişir. Məsələn: Sovet sistemi dəyişəndən sonra seçki leksemi öz epitetini tapdı: alternativ. Bununla da seçki deyəndə ən azı iki namizədin mübarizəsi nəzərdə tutulmağa başlandı. Sözə təsir onun xarici formasına təsirlə də həyata keçirilə bilər. Bu müxtəlif növ söz ixtisarları hesabına da ola bilər. Məs.: MDB.

Nominasiya ilə manipulyasiya deyilərkən, əvvəlki şərhdən fərqli olaraq, sözün mənasına təsirdən deyil, obyekti adlandırmaqdan ötrü sözlər seçimindən istifadə edilməsi nəzərdə tutulur. Bu, obyektin modallıq oxu üzrə hərəkətini təmin edir: bu hərəkəti danışan idarə edir. Məs.: ilk dövrlərdə hakimiyyətə o adamlar gəldilər ki, millətçi strukturlara arxalanırdılar. Onlar təcrübəsiz olmaqla yanaşı, həm də çox qəzəbli və ağılsız idilər. Bu cümlələrdə dəyərləndirmə konnotasiyası “millətçi”, “qəzəbli”, “təcrübəsiz”, “ağılsız” sifətlərinin köməyi ilə ifadə olunmuş və subyekt eksplisit ifadə olunmuşdur. Danışan tərəfindən bu dil vahidlərinin seçilməsinin iki səbəbi ola bilər:

1. Obyektə müsbət və ya neytral yanaşan auditoriyanı sağa doğru modallıq qövsündə yerləşdirmək. Obyektin mənfi obrazını yaratmaqdan ötrü sabit mənfi qiymətlər bildirən sözlərdən, yarlıklardan istifadə etmək.
2. Mənfi və ya neytral, yaxud neytral və ya müsbət qiymətləndirməyə malik auditoriyanı solda meyllənmiş modallıq qövsünə yerləşdirmək. Bundan ötrü neytral və ya müsbət konnotasiyalardan istifadə etmək lazımdır.

Dil materiallarının şərhi göstərir ki, müasir mərhələdə siyasi dilə ekstralinqvistik faktorlar (xüsusən dünya siyasi sisteminin dəyişməsi) xüsusi təsir edir. İndi peyorativ leksikadan [neqativ konnotasiyalı yumşaq leksika] istifadə geniş vüsət almışdır; Məs: Rusiyanın sabiq Baş naziri Fradkov nazirlərinə məsləhət verərkən demişdir: “O, şeyləri say-seçim etmək lazımdır ki, o, üzdədir.” Neqativ konnotasiyalı söz çoxdur, bu da belə nəticə çıxarmağa imkan verir. Neqativ mənalı sosial-siyasi leksikanın dominantlığı ciddi linqvistik sindromdur; sosial həyatın mənəvi deformasiyasına işarədir. E.Fromun bu ifadəsi yerinə düşür: Marksın dili az emosional və aqressiv idi, ona görə o, alman ictimaiyyətini yaxşı tərəfə çəkdi. [6, 412].

Bu və ya digər sözün konnotasiyası və modallığını dəyişdirməkdə evfemizm köməkçi rol oynayır, yəni dəyərlənən komponentin aydın ifadəsi olmur.

Çox vaxt siyasətçilər tərəfindən işlənən söz denotat oblastı ilə üst-üstə düşür, ancaq konnotasiyaya görə fərqlənirlər. Məs.: separatчылар və xilaskarlar, kontrterroristik əməliyyat və müharibə. M.P.Epşteyn bunları praqmem adlandırır. Onlar bir-biri ilə sinonimik məna münasibətindədirlər. Bir ölkənin digərinə təcavüzü hakimiyyət dəyişilməsi ilə qurtaranda, onu azadlıq, təcavüz, işğal, aqressiya da adlandırmaq olar. Bu, hadisəyə münasibətdən asılıdır. Bu vaxt təkcə konnotasiya sahəsində deyil, əsas məna sahəsində də fərq yaranır. Bu fərq seçilərək ön plana çıxır.

Siyasətçi sözlərin idarəsi əsasında sübut edə bilər ki, "qara" maskalanmış ağdır. Müəyyən obyekti lazım olan şəkildə adlandırmaq üçün leksik idarə ya sözün mənasının dəyişməsi, ya da xüsusi sözlər seçməklə həyata keçirilir. Dildə sözlərin semantik cəhətdən belə genişlənməsi, əsas mənadan onun fərqlənməsi, həmin məkanın variativliyi, bu və ya digər dil işarəsinin mənası, obyektin subyektlə sərbəst əvəzlənməsi və ya əksinə olan variantlar siyasətçilər tərəfindən ustalıqla istifadə olunur. Bu, hər şeydən əvvəl, sözlə oyundur və onun ciddi nəticələri olur.

## ƏDƏBİYYAT


1. Чудинов А.П. Политическая лингвистика (общие проблемы, метафора): Учеб. пособие. Екатеринбург: Уральский гуманитарный институт, 2003, 194 с.
2. Шейгал Е.И. Семиотика политического дискурса. Волгоград: Перемена, 2000, 368 с.
3. Сорокин Ю.А. Политический дискурс: попытка истолкования понятия / Политический дискурс в России. М.: Институт языкознания РАН, 1997, 203 с.
4. Хейзинга Й. Человек играющий. М.: Прогресс, 1992, 464с.
5. Лотман Ю.М. О поэтах и поэзии. Санкт Петербург: Искусство, 1996, 846 с.
6. Фромм Э. Душа человека. М.: Республика, 1992, 430 с.


## ПОЛИТИЧЕСКИЙ ДИСКУРС И ЛЕКСИЧЕСКИЕ ЕДИНИЦЫ


**Ф. А.ШИРИЕВ**



**РЕЗЮМЕ**

В статье говорится о политическом дискурсе и о существующих проблемах его параметров в лингвистике. Политический дискурс является текстом и в его формировании играет важную роль "игра слов", т.е. контекстуальное значение некоторых лексических единиц. Это связано с коммуникативной характеристикой политического дискурса, речевой целью оратора, речевым актом между адресата и адресанта.



**Ключевые слова:** политический дискурс, язык, речь, коннотация, слов

# THE POLITICAL DISCOURSE AND LEXICAL UNITS

**F.A.SHIRIYEV**

**SUMMARY**

The article illuminates the political discourse and existing problems of its parameters in linguistics. The political discourse is regarded as a text and “the play of words”, i. e. contextual meaning of some lexical units plays the key role in its formation. It is connected with the communicative characteristics of the political discourse, with the speech aim of the orator as well as the speech act between the addressee and the addressant.

**Key words:** political discourse, language, speech, connotation, word